**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# RUSİYA İMPERATOR TEXNİKİ CƏMİYYƏTİNİN BAKI BÖLMƏSININ FƏALİYYƏTİ

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Məhbubə Camal qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**Bakı - 2024**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin "Azərbaycan və Şərqi Avropa xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Baxşəliyev Adil Baxşəli oğlu**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Əsməd İmamməmməd qızı Muxtarova**

tarix üzrə elmlər doktoru, dosent
**Sevinc Məmməd qızı Seyidova**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Zeynəb Ağaməmməd qızı Qafarova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED.2.20 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix üzrə elmlər doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"19" 04 2024

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın dövlət müstəqiliyinin bərpa edilməsindən sonra cəmiyyət həyatı, o cümlədən elmin bütün sahələrində mühüm inkişafa nail olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmi işçilərin problemləri ilə maraqlanıb tez-tez onlarla görüşməsi, dövlət səviyyəsində elmi təşkilatlara hərtərəfli kömək göstərməsi və verdiyi tövsiyələr tarixçi alimlərimizin ölkəmizin tarixinin öyrənilməsini, o cümlədən, indi də öz aktuallığını saxlayan tarixi problemlərin araşdırılması sahəsində yeni tədqiqatlar aparmalarını zəruri edir.

Azərbaycan tarixinin elə dövrləri var ki, onların yenidən tədqiqinə bu gün də ehtiyac duyulur. XIX əsrin sonu - XX əsrin əvvəlləri məhz belə dövrlərdən biridir. Təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev 1997-ci il yanvarın 31-də AMEA-nın rəhbərliyi və aparıcı alimləri ilə görüşü zamanı çıxışında Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən öyrənilməsinin zəruriliyini xüsusi olaraq qeyd edərək demişdir ki, *"Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır"*.[1]

XIX əsrin son 30 ili və XX əsrin əvvəllərində neft sənayesi və digər istehsal sahələrinin inkişafının sürətləndirilməsi ilə bağlı bütün məsələlərin öyrənilməsi və bu proseslərin xüsusiyyətlərinin müəyyən edilməsi, nəticələrin dəyərləndirilməsi müasir Azərbaycan tarixinin ən aktual mövzuları və vəzifələrindən biri sayılır.

Bu baxımdan Azərbaycanda XIX əsrin II yarısından başlayaraq neft və digər sənaye sahələrinin təşəkkülü və inkişafı məsələlərinin yenidən araşdırılması, hərtərəfli təhlili tarixi tədqiqatlara yeni nəfəs vermək baxımından olduqca əhəmiyyətlidir.

Tədqiq etdiyimiz dövrə aid bu günümüzə qədər sovet və milli tarixşünaslığımızda kifayət qədər çoxlu monoqrafiya, dissertasiya və digər tədqiqat əsərlərinin yazılmasına baxmayaraq, bu gün də o dövrə, adı çəkilən məsələ və proseslərə bir daha qayıtmağa, tarixi

---

[1]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c. 8. -2006, -s. 216.

tədqiqatlardan indiyədək kənarda qalmış, ya da az toxunulmuş digər mövzulara müraciət edilməsinə ehtiyac var.

Belə mövzu və ya problemlərdən biri də tarixi tədqiqatlar üçün əvəzsiz mənbə rolu oynayan, lakin cəmi bir neçə kitab və yazılarda yalnız adı çəkilən və ya fəaliyyətindən çox qısa bəhs edilən "*Rusiya İmperator Texniki Cəmiyyətinin 1879-cu ildə təsis edilmiş Bakı Bölməsinin*" təxminən yarım əsrə yaxın bir müddətdə fəaliyyəti ilə bağlı çoxsahəli və çeşidli materiallarıdır.[2]

Tədqiqatçıların bir neçə nəslinin nümayəndələrinin neft və digər sənaye sahələrində əldə edilmiş nəticələri dəyərləndirərkən Bakı Bölməsinin fəaliyyətinin nəticəsi olan materiallara müraciət etmələrinə baxmayaraq, onların yarandığı ilk ünvanın məhz Rusiya İmperator Texniki Cəmiyyətinin (bundan sonra RİTC) Bakı Bölməsinin olması haqqında heç nə deyilməmişdir.

Tədqiqat problemi indiyədək heç vaxt xüsusi mövzu kimi nə monoqrafiya, nə də dissertasiyalarda işlənməmişdir. Dövrlə bağlı bir neçə kitab və yazıda Bakı Bölməsinin fəaliyyəti ilə bağlı materiallara müraciət edildiyi göstərilmişdir.

XIX əsrin sonu və XX əsrin əvvəlləri Rusiya tarixşünaslığı neft sənayesi və onun tarixinin ayrı-ayrı məsələlərinə müəyyən qədər diqqət ayırmışdır. Lakin onlar faktoloji xarakter daşımaqdan əlavə təhlil və ümumiləşdirmə baxımından elə bir əhəmiyyət daşımır.

Bu istiqamətdə ilk yazıların müəllifləri S.Qulişanbarov, V.Raqozin və bir neçə başqa müəlliflərin əsərlərində əsas mövzu neft sənayesinin tarixi, neft emalının yaxşılaşdırılması olmuşdur.[3]

---

[2]Кульчицский, В.В. 150 летний юбилей Русского Технического Общества. Инженер - нефтяник // - Москва: Научно- технический журнал, - 2016. №2, - с. 6.

[3]Гулишамбаров, С.И. Краткий очерк развития керосинового производства на Кавказе. Краткий очерк развития нефтяной промышленности на Кавказе / С.Гулишамбаров. - СПб: тип. Бр. Пантелеевых, - 1887.-32 с.; Рагозин, В. Нефть и нефтяная промышленность / В.Рагозин. - СПб: Тип. т-ва «Обществ. польза», - 1884. -561 с.

Bu səpkidən olan digər yazılar arasında M.Uşakovun[4] neft sənayesi və məhsullarının emalı, satışı ilə bağlı məsələlərdən bəhs edilən əsərlərini də göstərmək olar.

Rusiya tarixşünaslığında 1907-ci ilə qədər yazılmış yazılardan bəhs etdikdə tanınmış rus kimyaçı alimi D.Mendeleyevin əsərlərinin əhəmiyyəti ayrıca qeyd olunmalıdır.[5] Alimin əsərlərinin dəyəri həm də onun əsərlərində bəhs etdiyi məsələlərin Bakıdakı neftayırma zavodları və mədənlərdə sınaqdan çıxarılması, onun görülən işlər barədə Bakı Bölməsinin yığıncaqlarında məruzələrlə çıxış etməsi idi.

1920-1930-cu illərdə sovet tarixşünaslığında neft sənayesi mövzusuna aid tədqiqatların azalması və ikinci dünya müharibəsinin başlaması ilə əlaqədar demək olar ki, dayanması müşahidə edilir.

XX əsrin 50-ci illərində neft mövzusunda yazılan əsərlərdən S.Lisiçkin[6], S.Apresov[7], S.Axverdova[8] və V.Parxomenkonun[9] tədqiqatları neft sənayesində inhisarçı kapitalın rolu, xarici kapitalın Bakı neft sənayesinə nüfuzu və s. yeni cəhətlərə nəzər yetirilməsi ilə diqqəti cəlb edirdi.

---

[4]Ушаков, М.И. Нефтяная промышленность в России / М.И.Ушаков. - СПб: Типография В.Д.Смирнова, - 1912. - 194 с.

[5]Менделеев, Дмитрий и Бакинское нефтяное дело в 1886 г. / Д.Менделеев. - СПб: Тип. В. Демакова, - 1887. - 139 с.; По нефтяным делам / Д.Менделеев. - СПб: Изд-во А.А.Карцева, - 1885. - 82 с.

[6]Лисичкин, С.М. Очерки по истории развития отечественной нефтяной промышленности. Дореволюционный период / С.Лисичкин. -М.-Л: Гостоптехиздат. - 1954. - 404 с.

[7]Апресов, С.М. Из прошлого бакинской нефтяной промышленности / С.Апресов. - Баку: Азернешр, - 1969. -71 с.

[8]Ахвердова, С.Г. О роли русских ученых и специалистов в развитии нефтяной промышленности в XIX веке // - Баку: Известия АН Аз. ССР., Серия общественных наук, - 1960. №6, -с. 161 - 173.

[9]Пархоменко, В.Е. Д.И.Менделеев и русское нефтяное дело / В.Пархоменко. - Москва: Изд-во АН СССР, - 1957. -386 с.

Ə.Sumbatzadə və M.İsmayılovun əsərlərində XIX əsrdə Şimali Azərbaycanda neft hasilatı, emalı, neft sənayesi tarixinin bir çox məsələlərinin araşdırılması işinə ciddi töhfələr verilmişdir.[10,11]

Azərbaycan SSR-də neft sənayesi tarixinə diqqətin daha da artması ilə əlaqədar aparılan yeni elmi tədqiqatlar nəticəsində yeni nəşr edilmiş kitablardan M.Mustafayev, [12]Q.Həşimov, [13]V.Səmədov[14] və D.Seyidzadənin[15] əsərlərini də göstərmək olar.

1970-ci ildən başlayaraq Bakı neft sənayesinin tarixinə aid tədqiqatlar Azərbaycan sovet tarixşünaslığında əsas mövzulardan birinə çevrildi. M.İsmayılov və N.İbrahimov,[16] Ə.Qədirli,[17] E.Muradəliyeva,[18] R.İsmayılov,[19] S.Əliyarovun[20] əsərlərində neft və onunla bağlı məsələlərin tədqiqi bu fikri bir daha təsdiq edirdi.

Tanınmış azərbaycanlı sahibkar və xeyriyyəçi H.Z.Tağıyev və milli burjuaziyanın digər nümayəndələrinin Bakı Bölməsinin fəaliyyəti və onunla bağlı problemlərin həllində iştirakı, Bakı neft

---

[10]Сумбатзаде, А.С. Промышленность Азербайджана в XIX веке / А.Сумбатзаде. - Баку: Изд-во АН Азербайджанской ССР, - 1954. - 501 с.

[11]Исмаилов, М.А. Промышленность Баку в начале XX века / М.Исмаилов. - Баку: Элм, - 1976. -153 с.

[12]Мустафаев, М.М. Из истории развития Биби-Эйбатского нефтяного месторождения / М.М.Мустафаев.-Баку: Азернешр, - 1961. -72 с.

[13]Ашумов, Г.Г. Азербайджанские нефти / Г.Г.Ашумов. - Баку: Изд. АН Азерб. ССР, - 1961. -555 с.

[14]Самедов, В.А. Нефть и экономика России (80-90-е годы XIX века) / В.А.Самедов. - Баку: Элм, - 1988. - 102 с.

[15]Сеидзаде, Д.Б. Из истории азербайджанской буржуазии в начале XX века / Д.Б.Сеидзаде. - Баку: Элм, - 1978. - 146 с.

[16]İsmayılov, M., İbrahimov, N. Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi. / M. İsmayılov, N. İbrahimov. - Bakı: Elm, - 1991. - 282 s.

[17]Кадырли,А.М. Из истории развития дореволюционной нефтедобывающей промышленности / А.Кадырли. - Баку: Элм, - 1970. - 85 с.

[18]Мурадалиева, Э.Б. Города Северного Азербайджана во второй половине XIX века / Э.Мурадалиева. - Баку: Изд-во БГУ, -1991. -172 с.

[19]Исмаилов, Р.Г. Очерки развития нефтеперерабатывающей и нефтехимической промышленности Азербайджана / Р.Г.Исмаилов. - Москва: Наука, - 1968. - 167 с.

[20]Алияров, С.С. Нефтяные монополии в Азербайджане в период Первой мировой войны / С.С.Алияров. - Баку: Типография АГУ, - 1974. -228 с.

sənayesinin vəziyyəti, perspektivləri haqqında fikirlərindən bəhs edən yazılar XIX əsrin sonu - XX əsrdə müxtəlif vaxtlarda işıq üzü görmüşdür və biz onlardan tədqiqat boyu yetərincə istifadə etmişik.[21]

Dövlət müstəqilliyimizin bərpasından sonrakı illərdə neft sənayesinin inkişafı məsələlərinə aid yazılan bir çox kitab və məqalələr də müəyyən maraq doğurur. Bunlara misal kimi Ə.Mehdiyev,[22] N.İbrahimov,[23] H.Əmirquliyev,[24] K.Ocaqova,[25] S.Rıjov,[26] A.Matveyçuk,[27] M.Mir-Babayev,[28] E.Mövsümzadə,[29] C.Rüstəmova[30] və T.Aydəmirovun[31] tədqiqatlarını qeyd edə bilərik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildə nəşr olunmuş "Каспийская нефть Азербайджана" əsərinin[32] Azərbaycan neft sənayesi tarixinə və tarixşünaslığına böyük töhfə olmasını da xüsusi olaraq qeyd etməliyik.

---

[21]Гаджиев, А.Г. Миллионер Тагиев Зейнал-абдин / А.Гаджиев. - Махачкала: б/и, - 2000. - 136 с.; Тагиев, Гаджи Зейналабдин: [Elekrton resurs] / URL: https://dic.academic.ru/dic.nsf/ruwiki/457848;

[22]Mehdiyev, Ə.B. Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə / Ə.B.Mehdiyev. - Bakı: Altay nəşriyyatı, - 2000. - 128 s.

[23]İbrahimov, N.A. XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı şəhərinin mədəni və siyasi həyatı / N.A. İbrahimov. - Bakı: Ozan, - 1997. -132 s.

[24]Амиркулиев, Г.Д. История химической промышленности Азербайджана (XIX - начало XX в.) / Г.Д.Амиркулиев. - Баку: Элм, - 1990. -319 с.

[25]Оджагова, К.Р. Городское самоуправление Баку в конце XIX - начале XX вв. / К.Р.Оджагова. - Баку: Нурлан, - 2003. -135 с.

[26]Рыжов, С.Д. История создания Русского Технического Общества // - Москва: Вестник РУДН, Серия История России, 2013. № 4, -с.67-73.

[27]Матвейчук, А.А. Неизвестная Нобелевская премия // - Москва: Нефть России, - 1999. №5, - с. 96-103.

[28]Мир-Бабаев, М.Ф. Краткая история азербайджанской нефти / М.Ф.Мир-Бабаев. - Баку: Азернешр, - 2009. - 376 с.

[29]Мовсумзаде, Э.М. Зарождение перегонки апшеронской нефти и становление масляного производства / Э.М.Мовсумзаде. - Уфа: Реактив, - 1997. - 296 с.

[30]Рустамова, Дж.Я. Из истории предпринимательства в Азербайджане / Дж.Я. Рустамова. - Баку: Изд. БГУ, - 2012. - 334 с.

[31]Айдамиров, Т.С. Вывоз бакинской нефти из Азербайджана в конце XIX - начале XX вв. / Т.С.Айдамиров. - Баку: Элм, - 2014. -368 с.

[32]Алиев, И.Г. Каспийская нефть Азербайджана / И.Г.Алиев. - Москва: Известия, - 2003. -712 с.

Neft sənayesi tarixi ilə bağlı Qərbi Avropa ölkələri və ABŞ-da nəşr edilmiş bir sıra ədəbiyyatların təhlilindən aydın olur ki, bu yazılarda əsas diqqət Bakı neft sənayesində xarici kapitalın mövqeləri ilə bağlı məqamların tədqiqinə yönəlmişdir. Onlardan ikisini göstərməklə məsələ barədə fikrimizi tamamlamaq istərdik.[33]

Neft sənayesinin problemləri ilə bağlı tarixşünaslıq məsələlərindən danışarkən qeyd etməliyik ki, istər sovet, müasir Rusiya,[34] istərsə də Vətən tarixşünaslığında[35] onlarla namizədlik və

---

[33]Даниел, Е. Добыча: Всемирная история борьбы за нефть, денги и власть. Пер. санглийского / Е.Даниел. - Москва: Альпина Паблошир, - 2018. - 622 с.; Гуннар, Хедин. Шведские нефтяные короли: забытые братья Альфреда Нобеля. Пер. с англ. языка / Х.Гуннар.- Стогкольм: Екерлидс Форлаж, - 1994. - 561 с.

[34] Şahmuradov, A.Ş. XIX əsrin II yarısı - XX əsrin əvvəllərində Azərbaycanda rusların sahibkarlıq fəaliyyəti: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2000. - 29 s; Алиев, Г.А. Строительство Бакинско-Тифлисской железной дороги: / автореферат дис. кандидата исторических наук. / - Баку, 1986. - 29 с; Велиев,Т.Т. Промышленность и пролетариат Азербайджана в период империализма (кроме Баку): / автореферат дис. доктора исторических наук. / - Баку, 1986. -40 с; Матвейчук, А.А. Техническая интеллигенция в российском нефтяном предпринимательстве во второй половине XIX века: / автореферат дис. доктора исторических наук. / - Пенза, 2000. - 56 с; Самедов, В.А. Бакинский нефтепромышленный район в экономическом развитии России (1880-1900г.): / автореферат дис. доктора исторических наук. / - Баку, 1990. - 62 с

[35]Əliyeva, G.Ə. XIX -XX əsrin əvvəllərində Şimali Azərbaycanda rusdilli təhsil: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2014. - 28 s; Xəlilov, P.R. Bakı Neft Sənayeçiləri Qurultayının Səhiyyə və mədəni- maarif sahələrində fəaliyyəti: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2015. - 32 s; İsmayılov, A.N. Azərbaycan Respublikasının neft sənayesi üçün elmi və mühəndis-texniki kadrların hazırlanması tarixi: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2017. - 28 s.; Məmmədov, B.Ş. M.Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2001. - 30 s; Paşayev H.M. XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Rusiya və Azərbaycan iqtisadiyyatının inkişafı: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2015. - 28 s;Талыбова, С.Г. Культурно-просветительская и благотворительная деятельность азербайджанской буржуазии: / автореферат дис. кандидата исторических наук. / - Баку, 1994. -29 с.

doktorluq dissertasiyaları yazılmışdır. Bunların hər birində qarşıya qoyulmuş məsələlər bizim əsas tədqiqat mövzumuzla bağlı olmasa da, müəyyən məqamlarda bəzi müqayisə və təhlillərin aparılması baxımından onların materiallarına nəzər salmışıq.

Tarixşünaslıq baxımından nəzərdən keçirib təhlil etməyə çalışdığımız bütün əsərləri tədqiqatımızla bağlayan yeganə əsas cəhət isə bölmənin fəaliyyət dairəsinə daxil olan bəzi məsələlərin həmin yazılarda bu və ya digər dərəcədə tədqiqat obyekti kimi seçilməsidir.

Göründüyü kimi, nəzərdən keçirdiyimiz əsər və tədqiqatların heç birində bizim seçdiyimiz mövzu ilə bağlı konkret heç bir kitab, monoqrafiya, dissertasiya mövcud deyil.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin fəaliyyətinin tarixi baxımından əhəmiyyətli nəticələrin hərtərəfli araşdırılması və öyrənilməsidir.

Tədqiqatın predmetinə bölmənin texniki yeniliklərin istehsala tətbiqi, təbii sərvətlərimizin öyrənilməsi, elmi tədqiqatlar, mədəni maarif, abadlıq və digər sahələrdə gördüyü işlərin Şimali Azərbaycanın iqtisadi, siyasi, mədəni həyatı ilə bağlı sosial-iqtisadi və ictimai-siyasi proseslərə təsiri ilə əlaqədar məsələlər daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın başlıca elmi məqsədi XIX əsrin sonu - XX əsrin əvvəllərində RİTC Bakı Bölməsinin Şimali Azərbaycanda neft və digər sənaye sahələrində istehsalın intensivləşdirilməsi məqsədi ilə texniki yeniliklər və elmi kəşflərin tətbiqi, təbii sərvətlərimizin öyrənilməsi, elmi biliklərin genişlənməsi və yayılması, mədəni - maarif xarakterli işlər sahəsində, həmçinin, Bakı şəhərinin abadlaşdırılmasına yönəlmiş, lakin indiyədək tədqiq edilməmiş materialları elmi dövriyyəyə daxil etmək, bu işlərin Şimali Azərbaycanın iqtisadi, mədəni həyatı ilə bağlı təsirinin nəticələrini kompleks şəkildə tədqiq etməkdir.

Bakı Bölməsinin fəaliyyətinin nəticələri və bununla bağlı materialların Azərbaycan tarixinin XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid müxtəlif mövzuların öyrənilməsində tədqiq etdiyimiz problemin əhəmiyyətini müəyyən etmək də tədqiqat mövzusunun seçilməsini zəruri etmişdir.Tədqiqatın gedişində əsas elmi məqsəddən irəli gələn aşağıdakı konkret vəzifələrin həllinə cəhd göstərilmişdir:

- neft sahibkarları və digər sənayeçilər ilə Bakı Bölməsinin strukturları arasında əlaqələrdə mühəndis - texniki və elmi işçilərlə birgə səmərəli fəaliyyəti formaları ilə bağlı əhəmiyyətli faktlar və məqamların müəyyən edilməsi;

- elmi kəşflərlə istehsalın vəhdətinin yaranmasının yüz min rubllarla əlavə gəlir qazanmağa və ya bu vəsaitə qənaət etməyə imkan verdiyini faktlarla əsaslandırmaq;

- neft və digər sahələrdə istehsalın səmərələşdirilməsi və əldə edilən nəticələrin yüksəldilməsində alimlər və mühəndis-texniki işçilərin xidmətlərinin əhəmiyyətinin müəyyən edilməsi;

- Şimali Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi və tədqiqində Bakı Bölməsinin fəaliyyətinin nəticələrini araşdırıb ümumiləşdirmək;

- Bakı Bölməsinin Bakı şəhərinin abadlaşdırılması sahəsində fəaliyyətinin nəticələrini müəyyən etmək;

- texniki peşə kursları, kitabxana, muzeyin açılması və digər mədəni-maarif xarakterli fəaliyyət sahəsində bölmənin gördüyü işlərin əhəmiyyətini göstərmək.

**Tədqiqat metodları.** Tarixi yanaşma, elmi obyektivlik, tarixi tədqiqatlarda riyazi araşdırma üsulu, dünya tarix elminin və vətən tarixşünaslığının son nailiyyətlərinin nəzərə alınması ilə müəyyən edilmişdir. Mənbələr öyrənilərkən, faktlar şərh edilərkən tarixi müqayisə, təhlil və s. metodlardan istifadə edilmişdir. Dissertasiya materialların təhlili, ümumiləşdirilməsi, nəticə çıxarılması və xronoloji ardıcıllığın gözlənilməsi üsulu ilə yazılmışdır. Tədqiqat işi mənbələrin tarixilik baxımından tədqiqinə əsaslanır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- bölmənin fəaliyyəti ilə bağlı materialların Azərbaycan tarixinin müxtəlif problemlərinin öyrənilməsi üçün əhəmiyyəti;

- Bakı Bölməsinin gördüyü işlərin Simali Azərbaycanın neft sənayesi və digər sahələrdə yüksək səmərə və gəlir əldə etməyə kömək göstərmiş nəticələri;

- neft və digər sənaye sahələrini təmsil edən sahibkarların bölmə ilə əməkdaşlığı məsələləri;

- milli burjuaziyanın nümayəndələrinin Bakı Bölməsinin fəaliyyətində iştirakına aid yeni materialların müəyyən edilməsi;

- Bakı Bölməsinin təsis etdiyi mədəni - maarif təşkilatlarının fəaliyyətinin nəticələri;

-Bakı Bölməsinin Şimali Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi və tədqiq edilməsində iştirakı;

- bölmənin yerli idarəçilik strukturları ilə əməkdaşlığının praktik və səmərəli nəticələri.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya RİTC Bakı Bölməsinin fəaliyyətinin nəticəsi olaraq Şimali Azərbaycanda sənayenin müxtəlif sahələrində texniki yeniliklər və elmi kəşflərin tətbiqi, təbii sərvətlərimizin öyrənilməsi, elmi biliklərin inkişafı, mədəni - maarif və digər sahələrə aid indiyədək tədqiq edilməmiş materialların elmi dövriyyəyə daxil edilməsi və bunların iqtisadi, siyasi, mədəni həyatla bağlı bir sıra proseslərə təsirinin nəticələrinin kompleks şəkildə və obyektiv öyrənilməsinə həsr edilmiş ilk tədqiqatdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Mövzunun əhəmiyyətini, habelə onun indiyədək ayrıca xüsusi dissertasiya mövzusunda tədqiqat obyekti olmadığını nəzərə alaraq, müxtəlif mənbələrin materiallarının xeyli hissəsini ilk dəfə elmi dövriyyəyə cəlb edərək, problemin başlıca məsələlərini nəzərdən keçirməklə, Bakı Bölməsinin gördüyü işlərin neft və digər istehsal sahələrinin inkişafına köməyi, Bakının abadlaşdırılması, regionun təbii sərvətlərinin müəyyən edilməsi və mədəniyyətin inkişafına təsiri ilə bağlı bir sıra dəyərli fikirlər müəyyən edilmişdir.

Dissertasiyanın materialları, nəticələri və ümumiləşdirilmələrindən Azərbaycan tarixi, ilk növbədə neft sənayesi və texniki elmlərin tarixi üzrə ümumiləşdirici əsərlərin yazılması, orta, orta ixtisas və ali məktəblər üçün dərsliklərin tərtib olunması, mühazirə kurslarının hazırlanması, xüsusi kurs və seminarların keçirilməsində istifadə oluna bilər. Dissertasiya və onun ayrı-ayrı materialları tarixçilər, politoloqlar, siyasətçilər, bütövlükdə Vətən tarixi ilə maraqlanan hər bir oxucu üçün maraqlı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu ilə bağlı iddiaçının Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən dövri elmi nəşrlərdə - xaricdə 2, daxildə 5 olmaqla ümumilikdə 7 məqaləsi və 3-ü xaricdə

olmaqla 6 beynəlxalq və respublika elmi konfrans materiallarında tezisi çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Sumqayıt Dövlət Universitetinin "Azərbaycan və Şərqi Avropa xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş (12 səh.,20202), I fəsil (52 səh., 97576),II fəsil (34 səh.,61809 ), III fəsil (32 səh., 59853), nəticə (5 səh., 8639) və 254 adda istifadə olunmuş ədəbiyyat siyahısı (24 səh.), ümumi həcmi 161 səhifədən 248047 işarə sayından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş"ində mövzunun aktuallığı əsaslandırılır, öyrənilmə səviyyəsi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi, metodoloji əsasları, nəzəri - praktiki əhəmiyyəti göstərilir, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin fəaliyyətinin əsas istiqamətləri və əldə edilmiş nəticələrin səmərəliliyi"** adlanan ilk fəsli 3 yarımfəsildən ibarətdir. Bu fəslin ilk yarımfəsli **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin yaranması və fəaliyyətinin əsas istiqamətləri"** adlanır. Bu hissənin əvvəlində göstərilir ki, "*1879-cu ilin martın 24-də Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsi* (bundan sonra RİTC-in Bakı Bölməsi) *təsis edildi".*[36] Bu ilk növbədə diyarın iqtisadi və müəyyən dərəcədə mədəni həyatında mühüm hadisə demək idi. Bakı Bölməsi öz dövrü üçün əhəmiyyətli və yeni olan kəşflər, yeniliklərin həyata vəsiqə alması məkanı olmaqla bərabər, həm də

[36]Гаджыева М.Дж. Создание Бакинского отделения Императорского Русского Технического Общества // - Одеса: Науковий вісник. Міжнародного гуманітарного університету. Випуск 18. Серія Історія. Філософия. Політологияя, - 2019, -с. 21.

Şimali Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində səmərəsi yüksək olan elmi-texniki kəşflərin tətbiqinə şərait yaratmışdı.

Cəmiyyətin təşkilində, həm də onun fəaliyyətinin səmərəli olmasında iri sənaye dairələrinin nüfuzlu nümayəndələrindən L.Nobel, N.Putilov, Struve qardaşları, T.Morozov, D.Şipov və digərlərinin rolu ayrıca qeyd olunmalıdır. "*Çünki cəmiyyətin mövcud olduğu illərdə bütün kəşf və yeniliklərin həyata keçirilməsində iri kapitalın nümayəndələrinin dəstəyi olduqca vacib idi".*[37]

Bakı Bölməsi üzvlərinin fəaliyyət formaları müxtəlif idi. Bölmə fəaliyyətinin ilk günlərindən müxtəlif istehsal sahələrini əhatə edən tədbirlər həyata keçirirdi. Bölmə üzvlərinin sayının artması, fəaliyyət istiqamətlərinin çoxalması da müşahidə edilirdi. *"1914-cü ildə bölmə üzvlərinin sayı 140 olmuşdu".*[38]

Bakı Bölməsinin fəaliyyəti təkcə neft sənayesi ilə bağlı olmamışdı. Bölmə əməkdaşlarının fəaliyyəti müxtəlif kəşf və təkliflərin ayrı-ayrı istehsal sahələrində yüksək səmərə verməsi ilə yadda qalmışdır.

Bakı Bölməsinin fəaliyyətində dövrün tanınmış professor və elm xadimləri, mühəndis-texniki işçilərin aparıcı rol oynaması da diqqəti cəlb edirdi. Bu, bölmənin fəaliyyətinin əsas cəhəti idi.

Texniki Cəmiyyət və onun yerlərdəki şöbə və bölmələrinin çoxşaxəli fəaliyyəti istiqamətlərindən biri də müxtəlif adda jurnal və digər nəşrlərin təşkili idi. Bakı Bölməsinin nəşrləri içərisində ən çox davamlı olan "Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin Əsərləri" (bundan sonra ...Bakı Bölməsinin Əsərləri) jurnalının buraxılışlarını ayrıca qeyd etməliyik. Jurnal Rusiyada neft məsələlərindən bəhs edən ilk mətbuat nümunəsi hesab olunur[39].

---

[37]Кульчицский, В.В. 150 летний юбилей Русского Технического Общества. Инженер - нефтяник // - Москва: Научно- технический журнал, - 2016. №2, - с.7.

[38]Отчет о деятельности БО ИРТО за 1914 год. Издание БО ИРТО // - Баку: Тип. Труд С.Г.Берладира, 1915, -с.55.

[39] Hacıyeva M.C. Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin materialları Azərbaycanın XIX əsrin sonu XX əsrin əvvəlləri tarixinin öyrənilməsində mənbə kimi // - Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi

Bakı Bölməsində neft və digər sənaye sahələrinin inkişafı, istehsalın genişləndirilməsi məqsədi ilə görülmüş işlərdə tanınmış mühəndis və alimlərin xüsusi xidmətləri olduğunu ayrıca qeyd etmək lazımdır.[40]

İlk fəslin "**Texniki yeniliklərin istehsal proseslərində tətbiqi sahəsində Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin fəaliyyəti"** adlanan ikinci yarımfəslində deyilir ki, Bakı Bölməsinin fəaliyyəti təkcə bir neçə sahə ilə, yaxud yeni texniki yeniliklərin istehsala tətbiqi ilə məhdudlaşmamışdı.

Bakı Bölməsinin fəaliyyətində diqqət çəkən xüsusi məqamlardan biri də yüksək mənfəət perspektivləri olan hazır kəşf və təkliflərin hazırlanması sahəsində sənaye dairələrinin nümayəndələri ilə əməkdaşlıq formaları idi.

Bakı Bölməsinin fəaliyyətində neft sahibkarları ilə təcrübəli mühəndis-texniki işçilərin əməkdaşlığı, müxtəlif istehsal problemləri ətrafında fikir mübadilələri aparılması halları ilə tez-tez rastlaşılırdı. Bölmənin üzvlərindən L.Nobel, H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, V.Raqozin, İ.Hacınski kimi sənayeçi və sahibkarların neft məsələləri barədə məlumat, təklif və müraciətləri bu əməkdaşlığın çox yayılmış formalarını təşkil edirdi.

Bakı Bölməsinin fəaliyyətində texniki yeniliklərin təbliği məqsədi ilə müxtəlif illərdə Bakıda keçirilmiş sərgilərin təşkili ilə bağlı işlər haqqında da məlumatlar çoxdur. Belə tədbirlərin gedişi və nəticələri həmişə bölmənin xüsusi diqqət mərkəzində olmuşdu.[41]

---

Xəbərləri, - 2020. cild 16, № 1, s. 49.; Гумбатова, Т. Баку в начале XX века // - Баку: Эхо. 2012, 17 августа. - с.10.

[40]Квитко (Квитка), Семен Кузьмич - "Апшеронский " казак:[Elekrton resurs] / URL:https://www.baku.ru/enc-show.php?id=159291&cmm_id=276; Харичков, Константин Васильевич. - химик-органик: [Elekrton resurs] / URL: www.ourbaku.com/index.php/Харичков_Константин_Васильевич_-_химик-органик; Буланова, О. Первый азербайджанский ученый-химик // Эхо. - 2016, - 8 октября. - с. 7.; Джафаров, К., Джафаров, Ф. Нефтяник от Бога // Вышка. 2004, 8 октября. - с.8.

[41]Переписка Бакинского Отделения Имперского Русского Технического Общества о приобретении сооружений Международной выставки двигателей внутренного сгорания в Баку// AzərbaycanRespublikası DövlətTarix Arxivi, Fond № 389, siyahı №1, 1-ci hissə, iş № 482, vərəq - 1.

Üzvlərinin əksəriyyətinin qeyri-millətlərdən olduğu Bakı Bölməsində görülən işlərin fəal iştirakçılarından biri olan H.Z.Tağıyev, habelə M.Muxtarov, M.Nağıyev, Ş.Əsədullayev, İ.Hacınski və başqa azərbaycanlı sahibkarların bölmənin verdiyi təklifləri həyata keçirmələri, bölmədə müzakirə olunan məsələlərə münasibətləri haqqında da çoxlu faktlar var.

1890-cı ildə mindən çox işçini birləşdirən xüsusi qazma şirkəti yaradan və ilbəil gəlirlərini artıran M.Muxtarovu digər həmkarlarından fərqləndirən ən əsas cəhət Bakı Bölməsində fəal iştirak etməsi, "*qurumun irəli sürdüyü təklif və tövsiyələrdən öz şirkətinin işində istifadə etməsi ilə yanaşı, özünün də bu məsələlərdə kifayət qədər səriştəli olması idi*".[42]

Bakı Bölməsinin işlərində yaxından iştirak etmiş başqa bir neft sahibkarı M.Nağıyev neft sahəsi üzrə dövrün tanınmış mühəndis və texniki işçilərinin xidmətlərindən çox istifadə etməsi ilə fərqlənirdi. O illərdə imperiya və dünyanın böyük şəhərlərindən "*Bakıya gələn, adı sonralar Bakı Bölməsinin fəaliyyəti ilə əlaqələndirilən alimlər və mütəxəssislərin bir çoxunun Bakıya dəvəti və gəlmələri məhz M.Nağıyevin yaxından iştirakı ilə baş tutmuşdu*".[43]

Onu da qeyd etməliyik ki, adları çəkilən azərbaycanlı sahibkarların bölmənin fəaliyyətində iştirak etmələri iqtisadi maraqlarla yanaşı, milli maraqlarımızın qorunub saxlanılmasına da çox kömək etmişdi.

Bu faktların digər bir əhəmiyyəti də budur ki, bunlar Şimali Azərbaycanda milli burjuaziyanın formalaşması, fəaliyyət sahələri və bir çox digər məsələlər haqqında indiyədək yazılmış kitablarda rast gəlinməyən məqamlar və halların aşkar edilməsinə, bəzi fikir və qənaətlərə yenidən baxılmasına əvəzsiz yardım etmişdir.

Dissertasiyanın bu fəslinin üçüncü yarımfəsli **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin elmi**

---

[42] Договоры заключенные обществом с различными фирмами на производсво буровых работ // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 730, siyahı №2, iş № 7, vərəq - 1.; Буланова, О. Первый азербайджанский ученый-химик // Эхо. - 2016, - 8 октября. – с.7.

[43] Гусейнов, В. Бакинская нефть и нефтяные магнаты Баку // Вышка. - 2002, 9 августа.-с.4.

**tədqiqatlarının əsas nəticələri”** adlanır. Bu hissədə göstərilir ki, Bakı Bölməsinin fəaliyyətinin mühüm istiqamətlərindən biri də o dövrün tanınmış alimləri ilə əməkdaşlıq olmuşdur. Əməkdaşlıq formaları həm çoxsahəli, həm də səmərəli olmuşdu.

Bakı Bölməsi ilə səmərəli əməkdaşlıq etmiş kimyaçı alim D.Mendeleyev 1863-cü ildə ilk dəfə Bakıya gəlmişdr. Onun neft sənayesi problemləri ilə bağlı tədqiqatları başlamış və təxminən 40 ilə yaxın davam etmişdi. O, 1880, 1884 və 1886-cı illərdə Bakıya səfərlərinin gedişində Bakı Bölməsinin yığıncaqlarında çıxış etmişdi. Alimin təklif və tövsiyələri neft sənayesinin inkişafında çox böyük rol oynamış və müxtəlif illərdə neft sahibkarlarından H.Z.Tağıyev, “Nobel qardaşları” və digərlərinin neftayırma zavodlarında uğurla tətbiq olunmuşdu.

1886-cı il mayın 13-də Bakı Bölməsinin yığıncağında D.Mendeleyevin çıxışının əsas mövzusu *“Bakı neft sənayesinin inkişaf perspektivləri idi”.*[44] Alimin*“Balaxanı və Sabunçu neft mədənlərində neftin səthində müşahidələrin aparılması metodunu şərh etməsi də mühüm əhəmiyyətə malik idi”.*[45] Bu deyilənlərin ortaq cəhəti budur ki, böyük alimin bu cür səmərəli təkliflərinin səsləndiyi ilk məkan Bakı Bölməsi idi.

Bakı Bölməsinin elmi-tədqiqat işlərində xüsusi xidmətləri olmuş alim-mühəndis S.Kvitkonun kəşf və ixtiraları da ümumilikdə, Şimali Azərbaycan neft sənayesinin inkişafında ciddi izlər qoymuşdur.

Belə kəşflərin elmi yeniliyi və praktik əhəmiyyəti hətta imperiyanın hüdudlarından çox kənarda dünya elmi təşkilatları və nüfuzlu alimlər tərəfindən yüksək qiymətləndirilirdi. Bunlar arasında

---

[44]Мысли Д.И.Менделеева о мерах содействущие развитию Бакинской нефтяной промышленности (из журнала Общего Собрания от 20 августа 1886 г.) // - Баку: Труды БО ИРТО, 1886.№ 2, - с.12–21.

[45]Некоторые соображения В.И.Менеделеева о Бакинской нефтяной промышленности (из журнала Общего Собрания от 19 мая 1886 г.) // - Труды БО ИРТО, Баку: 1886.№ 2, - с.1 – 11.; Мысли Д.И.Менделеева о мерах содействущие развитию Бакинской нефтяной промышленности (из журнала Общего Собрания от 20 августа 1886 г.) // - Баку: Труды БО ИРТО, 1886.№ 2, - с.12-21.

*"alüminiumdan sənaye məqsədləri üçün istifadə",*[46] *"neft məhsullarının alüminium metallara təsir dərəcəsi",*[47] *"mineral yağların analizi və işlənilməsində yeni üsullar",*[48] *"buxar mühərrikli maşınların yeni təkmilləşdirilmiş variantı",*[49] *"mədənlərdə mayenin hava vasitəsilə çıxarılması aparatı",*[50] *"yerin torpaq örtüyünün temperaturunun ölçülməsi"*[51] və yüzdən çox digər elmi-praktik yeniliklərin həyata vəsiqə aldığı ilk ünvan məhz Bakı Bölməsi olmuşdu.

Bakı Bölməsinin 1886-1904-cü illərdəki fəaliyyətinin yekunlarına həsr edilmiş "Əsərlərin" müxtəlif saylarında çap edilmiş məqalə və digər hesabatlar, məlumatların "Göstəricisi"nin[52] araşdırılması gedişində məlum olmuşdur ki, burada 83 alim və tanınmış mütəxəssislərin müəllif yazısı getmişdi. Bunların arasında A.Quxmanın 10, K.Lısenkonun 20, K.Xariçkovun 21, V.İstominin 6, S.Kvitkonun 7, təxminən 10 nəfərin isə hər birinin 4 məqaləsi jurnalın müxtəlif saylarında çap edilərək həmin sahələrə maraqları olan şəxslərin diqqətini cəlb etmişdi (Hesablamalar müəllifindir).

Bakı Bölməsinin elmi-tədqiqat işlərində iştirak etmiş azərbaycanlı alimlərdən biri də Fətulla Rüstəmbəyov idi. F.Rüstəmbəyovun təklif və tövsiyələrinin hamısı təcrübədə birbaşa tətbiq olunaraq neft mədənlərində xeyli səmərə əldə etməyə kömək

---

[46]Исследования о применениях алюминия для промышленных целей // - Баку: Труды БО ИРТО, 1895. № 5, - с.63.
[47]Харичков, К.В. Действивия нефтяных продуктов на металлический алюминий // - Баку:Труды БО ИРТО, 1896. № 1, - с.16.
[48]Новости в области и обрботки минерального масла // - Баку: Труды БО ИРТО, 1903. № 3, - с.172.
[49]О конструкции паровых машин для нефтяных промыслов // - Баку: Труды БО ИРТО, 1894. № 5, - с.58.
[50]Подьем жидкостей из глубоких скважин непосредством сжатого воздуха. Выбор рациональной конструкции и обьяснение способа действий // - Баку: Труды БО ИРТО, 1910. № 5-9, -с.41.
[51]К вопросу о температуре земной коры // - Баку: Труды БО ИРТО, 1892. - с.87.
[52]Питерский, Я.М. Указатель статей и заметок, помещенных в "Трудах Бакинского Отделения Императорского Русского Технического О-ва" с 1886- по 1904 г. / Я.Питерский. - Баку: Тип. бр. Тер - Ованесовых, 1904. - 86 с.

edirdi. Azərbaycanda qaz sənayesinin təşkilinin nəzəri əsaslarının hazırlanması da məhz F.Rüstəmbəyovun elmi fəaliyyəti ilə bağlıdır. Alimin o vaxt "Artyom" adası adlanan indi Pirallahı kimi tanıdığımız ərazidə *"dənizdə zəngin neft yataqlarının mövcudluğunu təsdiq edən hesablama və cədvəlləri", "dənizdə neft qazma qurğularının salınması"* haqqında elmi cəhətdən əsaslandırılmış təklifləri öz dövrünü onillərlə qabaqlamaq demək idi.[53]

Bakı Bölməsinin elmi-tədqiqat işlərində yaxından iştirak edən azərbaycanlı alimlərdən biri də Möhsün Xanlarov idi. M.Xanlarov birinci azərbaycanlı kimyaçı alim olmuşdur. Onun bölmənin fəaliyyətində iştirakını göstərən faktlardan biri neft məhsulları və digər təbii sərvətlərmizin tərkibinin öyrənilməsi üçün xüsusi "*kimya laboratoriyasının təşkili təklifi və məsələ ilə bağlı fikirlərini dəfələrlə bölmənin ümumi yığıncaqlarında faktlarla əsaslandırılmış məruzələrlə çıxış etməsi idi*".[54]

Tədqiqatın bu hissəsində elmi dövriyyəyə daxil etdiyimiz materialların başqa bir əhəmiyyəti də budur ki, bunlar Şimali Azərbaycanda milli burjuaziyanın formalaşması, fəaliyyət sahələri və bir çox digər məsələlər haqqında indiyədək yazılmış kitablarda rast gəlinməyən qiymətli faktlar və halların aşkar edilməsinə, bəzi fikir və qənaətlərə yenidən baxılmasına əvəzsiz yardım etmişdir.

Tədqiqatın "**Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin mədəni-maarif xarakterli fəaliyyəti"** adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir. Bu fəslin ilk yarımfəsli **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin məktəbləri"** adlanır. Bu hissədə deyilir ki, RİTC-nın Bakı Bölməsinin Bakı şəhərində əhalinin müxtəlif təbəqələri arasında, xüsusi ilə neft mədənlərində və zavodlarda çalışan fəhlələr arasında texniki biliklərın yayılması sahəsində gördüyü işlər ayrıca qeyd edilməlidir. Qeyd edək ki, bu məsələlər indiyədək tarixi tədqiqatlarda və ədəbiyyatlarda ya

[53]Бакинские миллионеры: [Elekrtonresurs] / - URL:https://www.baku.ru/enc-show.php?cmm_id=112&id=23534&c=938

[54]Рахшанлы, Расул. Учёный-химик Мовсум бек Мухаммед бек оглы Ханларов (1857 -1921): [Elekrton resurs] / URL: https://www.baku.ru/blg-list.php?id=105008

ümumiyyətlə diqqətdən kənarda qalmış, ya da məsələ ilə bağlı bəzi kiçik məqalələrdə verilmişdir.[55]

Bakıda 1884-cü ildə təsis edilmiş Neft Sənayeçiləri Qurultayı Şurasının XIX əsrin sonlarından başlayaraq həyata keçirdiyi xeyriyyə tədbirlərinin bir istiqaməti də mədəni-maarif təşkilatlarının, o cümlədən bir sıra məktəblərin açılması idi. Qurultayın fəaliyyəti ilə bağlı müxtəlif hesabatlarda, bəzi tədqiqat əsərlərində bu haqda müəyyən məlumatlar əldə etmək olar.[56]

Bakı Bölməsinin bu işdə xidmətləri ayrıca qeyd edilməlidir. Bölmə yanında ilk fəhlə kurslarının fəaliyyətinin əvvəli 1903/1904-cü dərs ilinə aiddir ki, bu *"kursların fəaliyyətinə nəzarət üçün xüsusi komissiya da yaradılmışdı".*[57] Bölmə daxilindəki kursların fəaliyyəti ilə bağlı bütün məsələlər bölmədə xüsusi təşkil edilmiş komissiya və kursların administrasiyası tərəfindən nəzarətdə saxlanılır və bölmənin illik hesabatlarında da əks edilirdi.

Yalnız iki dəfə - 1905 və 1912-ci illərdə bölmədəki bütün kursların fəaliyyəti ilə bağlı hesabatlar, komissiyaların iclaslarının protokolları və digər mühüm rəsmi sənədlər ayrıca kitabça formasında çap edilmişdi.[58]

---

[55]Из истории создания культурно - просветительных учреждений в Азербайджане в конце XIX - начале XX вв., AMEA Tarix İnstitunun Elmi Arxivi, İnventar № 6779, qutu №239, iş № 239, vərəq - 126.; Таирзаде, Н.К. К истории народного образования в промыслово-заводском районе Баку в конце XIX - начале XX века // - Баку: АН Азербайджанской ССР. Серия история, философия и право, - 1988. № 1, - с. 63 - 64.

[56] Xəlilov, P.R. Bakı Neft Sənayeçiləri Qurultayının Səhiyyə və mədəni- maarif sahələrində fəaliyyəti: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2015. - 32 s.; yenə onun: Деятельность «Съезда Бакинских нефтепромышленников» в сфере образования в конце XIX в. [Elekrton resurs] / URL:http://kavkazplus.com/news.php?id=223#.XR7bHegzaUk

[57]Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1904/1905 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, - 1905. - с. 3.

[58]Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1904/1905 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, - 1905. - 75 с.; Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1911/1912 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, 1912. - 40 с.

Bakı Bölməsinin texniki kurslarının fəaliyyəti və onların nəticələri haqqında ən geniş və əhəmiyyətli faktlar 1911/1912-ci tədris ilinə aid tərtib edilmiş hesabatda verilmişdir.[59]

Bölmənin kitabxanası və onun yerlərdəki geniş şəbəkəsi haqqında tədqiqatın başqa hissəsində bəhs edildiyi üçün burada tək bir məsələni göstərmək istərdik. 1909-cu ilin mayın 1-də ilk dəfə bölmənin kurslarının nəzdində "Qazma işləri sahibkarlarının sindikatı" tərəfindən alınıb bölməyə bağışlanmış kitablar hesabına Şimali Azərbaycanın mədəni həyatında daha bir yeniliyə imza atıldı və bölmənin öz kitabxanası açıldı. Elə həmin ildə "*kitabxana avadanlıqlarının alınmasına 400 rubl xərclənmişdi.*"[60] Qeyd etməliyik ki, indiyədək biblioqrafik ədəbiyyatlarda bu haqda ətraflı məlumat verilməmişdir.

Bir məsələni də xüsusi vurğulamaq istərdik ki, bölmənin texniki fəhlə kurslarının təmsil etdikləri firma, fabrik və zavodların adlarının mühüm bir hissəsi heç bir ədəbiyyatda verilməmişdir. Onların o dövrdə varlığı və sahiblərinin milli tərkibi haqqında məlumatlara yalnız RİTC Bakı Bölməsinin bəhs etdiyimiz hesabatları və illik "Əsərlər" adlı jurnallarının müxtəlif saylarında rast gəlinir.

Bölmənin texniki fəhlə kurslarının daha çox məlumat verilən 9 illik fəaliyyəti ilə bağlı ümumiləşdirmələrə əsasən deyə bilərik ki, bu müddətdə kurslara 1106 dinləyici müraciət etmiş və ya göndərilmiş, bunlardan 911-i qəbul olmuş, 165-nə imtina cavabı verilmiş, bunlardan 471-i təhsili yarımçıq qoymuşdu.[61] Bu müddətdə 53 müxtəlif peşə üzrə 1106 dinləyicinin təhsil alması qeydə alınmışdı.

---

[59]Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1911/1912 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, 1912. – с. 4-30.

[60]Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1911/1912 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, 1912. - с. 6.

[61] Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1911/1912 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, 1912. - с.26-28.

Kurslarda ən çox dinləyicinin qeydə alındığı illər 1906/1907-ci (181), 1907/1908-ci (141), 1908/1909-cu (142), 1909/1910-cu (165) və sonuncu 1911/1912-ci tədris illərinə (168) təsadüf etmişdi". (Hesablama və müqayisələr 62 saylı mənbənin göstəriciləri əsasında müəllif tərəfindən aparılmışdır).

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin kitabxanası"** adlanır. Burada göstərilir ki, Bakı Bölməsinin kitabxanası zənginliyi ilə yanaşı kitabların şöbələr üzrə yerləşdirilməsi, mühafizəsi və istifadə qaydaları baxımından da diqqəti xüsusi cəlb edir. Kitabların təyinatı, spesifikası baxımından burada 16 şöbənin mövcudluğu kitabların elm və istehsalın ən müxtəlif sahələrinə aiddiyyəti ilə bərabər yeni nəşrlərdən ibarət olması və digər cəhətlər baxımından da maraq doğurur.

Kitabxananın birinci şöbəsi "Memarlıq və tikinti sənəti" adlanırdı.[62] Burada rus və xarici müəlliflərin müxtəlif dillərdə 73 adda kitabları saxlanırdı. Bu kitabların məzmunu tək elmi deyil, həm də praktik baxımdan əhəmiyyətli olması ilə də seçilirdi.

Kitabxananın ikinci şöbəsi "Geodeziya və rabitə yolları" adlanırdı.[63] 1912-ci ildə burada 38 müxtəlif adda, həm o dövrün görkəmli alimlərinin, həm də praktik fəaliyyətinin nəticələri ilə tanınan şəxslərin müəllifi olduğu dəyərli kitablar saxlanırdı.

Kitabxananın "Geologiya, mineralogiya, petroqrafiya və paleontologiya"[64] adlı üçüncü şöbəsindəki kitablar ən çox yer quruluşu ilə bağlı olan elmləri təmsil edərək son və əhəmiyyətli bilik və məlumatları özündə əks etdirməsi baxımından diqqəti cəlb edirdi.

---

[62]Каталог книг Библиотеки Бакинского отделения Императорского Русского Технического Общества / - Баку: Тип. Трудь С.Г.Бернадира, - 1911, -с. 2.

[63]yenə orada, -c.7.

[64] Каталог книг Библиотеки Бакинского отделения Императорского Русского Технического Общества / - Баку: Тип. Трудь С.Г.Бернадира, - 1911, -с.11-16.

Kitabxananın "Hidravlika və Hidrotexnika"[65] adlanan dördüncü şöbəsindəki kitabların məzmunu bir çox parametrlər baxımından maraq doğururdu. Doğrudur, buradakı kitablar sayca çox olmayaraq cəmi 85 nüsxə idisə də, ancaq əhatə etdiyi məsələlərin və verilmiş materialların daha çox praktik əhəmiyyət daşıması baxımından diqqəti cəlb edir.

Kitabxananın altıncı, yeddinci, on üçüncü və on dördüncü şöbələrindəki kitablar təbiət elmləri sahələrinə aid olub riyaziyyat, tətbiqi və nəzəri mexanika, fizika, kimya, elektrokimya və fiziki kimya sahələri üzrə ən nadir və dəyərli nəşrlərdən ibarət idi.[66]

Bakı Bölməsinin kitabxanasının ən zəngin və elmi-praktik baxımından əhəmiyyətli şöbələrindən biri də "Neft şöbəsi"[67] adlanan səkkizinci şöbə idi. Bu şöbənin əsas xüsusiyyəti buradakı kitabların yüksək dəyərli olması, böyük praktik əhəmiyyət daşıması idi.

Bakı Bölməsinin kitabxanasının daha bir - "Ümumi şöbə"[68] adlanan hissəsi də ən çox nəzəri materialların və kitabların saxlandığı yer idi. Bu şöbədəki kitabların təxminən 80 faizindən çoxu Avropanın paytaxt şəhərlərində çap olunmuş və əcnəbi dilləri bilən mütəxəssislərin istifadə etməsi üçün nəzərdə tutulurdu.

Bakı Bölməsinin kitabxanasının son dərəcə geniş olan və daha çox nəşrlərin saxlandığı, müxətlif peşə sahiblərinin müraciət etdiyi "Dövri mətbuat" adlı sonuncu - on altıncı, həm də ən böyük şöbəsi xüsusi ilə əhəmiyyətli idi. 1076 adda müxtəlif dillərdə xarici ölkələrdə və imperiya şəhərlərində çap olunan müxtəlif səpkili jurnallar, qəzetlər, məlumat göstəriciləri, kitabça-bələdçilər, bülletenlər, Qeydlər, Xəbərlər, Əsərlər[69] buradakı nəşrlərin yalnız kiçik bir hissəsinin adlarıdır. Fikrimizcə, bu şöbə və burada saxlanılan nəşrlər haqqında bir qədər geniş danışmağa dəyər. Kitabxana fəaliyyətə başaldığı vaxtdan 208 adda xarici nəşrin abunəçisi olmuş və bu

---

[65]Каталог книг Библиотеки Бакинского отделения Императорского Русского Технического Общества / - Баку: Тип. Трудь С.Г.Бернадира, - 1911, -с.7.

[66]yenə orada, -c.39,41,107,113.

[67]yenə orada, -c.53-67.

[68]yenə orada, -c.78-81.

[69]Каталог книг Библиотеки Бакинского отделения Императорского Русского Технического Общества / - Баку: Тип. Трудь С.Г.Бернадира, - 1911, -с.119-137.

nəşrlərin bütün illik sayları təəccüb doğuracaq dərəcədə səliqə-sahmanla burada toplanmış və oxucuların istifadəsində olmuşdu. Bunların xeyli hissəsi Berlin, Hamburq, Varşava, Paris, London, Nyu-york, Leypsiq, Vyana və digər şəhərlərindəki ali məktəblər və elmi cəmiyyətlərin bülleten və jurnallar formasında elmi nəşrlərindən ibarət idi.

Tədqiqatın son fəsli **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin təbii sərvətlərimizin öyrənilməsi və Bakı şəhərinin abadlaşdırılması işlərinə köməyi"** adlanır. Bu fəslin **"Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin təbii sərvətlərimizin öyrənilməsi sahəsində fəaliyyəti"** adlı ilk yarımfəslində deyilir ki, Bakı Bölməsi Bakı şəhəri əhalisi arasında ən müxtəlif istiqamətlərdə və formalarda təbliğat və təşviqatla məşğul olmuş, maarifləndirmə işləri aparmışdır. Belə fəaliyyət sahələrindən biri də Bakı Bölməsinin muzeyi idi. Muzeyin on üç şöbəsində saxlanılan irili-xırdalı müxtəlif əşyalara elə həmin vaxt onlara muzey işçiləri və digər mütəxəssislər tərəfindən əlavə edilmiş izahlar əslində tək adi izləyici üçün deyil, deyərdik ki, həm də tarixçi-tədqiqatçı üçün də çox şeylər deyir.[70]

Bakı Bölməsinin muzeyinin materiallarının tədqiqatımız üçün önəmli olması səbəblərindən biri buradakı əşyaların böyük bir hissəsinin bölmə tərəfindən təbii sərvətlərimizin ehtiyatlarının öyrənilməsi üçün görülmüş işlərin gedişində toplanması idi.

Cəmi 13 şöbədən ibarət olan muzey və orada saxlanılan əşyalar XX əsrin əvvəllərində Şimali Azərbaycanın iqtisadiyyatı, Bakı şəhərinin tarixi yerləri və bir çox digər məsələlərin araşdırılması baxımından son dərəcə vacib olan materiallarla əyani şəkildə tanış olmağa imkan verir.

Muzeyin şöbələrindəki əşyaların böyük əksəriyyəti Şimali Azərbaycanın təbii sərvətlərlə zəngin olduğunu göstərməklə bərabər, həm də onların yerlərinin müəyyən edilməsi, ehtiyatlarının təyin olunması, torpağın aqrokimyəvi tərkibi ilə bağlı məsələlərin öyrənilib araşdırılması üçün əhəmiyyətli idi. Buradakı əşya-eksponatların

[70]Каталог музея Бакинского отделения Императорского Русского Технического Общества / - Баку: Тип. Трудь С.Г.Бернадира, - 1912, - 98 с.

mühüm hissəsi Şimali Azərbaycanın müxtəlif regionlarında keçirilmiş ekspedisiyalarda toplanılan nümunələr idi.[71]

Neftin yeni ehtiyatlarının axtarılıb tapılmasından danışarkən, bir ənənə olaraq, *"bu işlərin yalnız Bakı şəhəri və Abşeron yarımadası ilə məhdudlaşdığını qəbul edirik"*.[72] Lakin Bakı Bölməsinin yeni neft ehtiyatlarının axtarılıb tapılması istiqamətində gördüyü işlərin nəticələrinin araşdırılmasından sonra Şimali Azərbaycanın digər bölgələrində də kifayət qədər neft ehtiyatlarının mövcudluğu haqqında yeni məlumatlar əldə edilməsi mümkün olmuşdu.[73]

Bakı Bölməsinin "Əsərləri"nin 1897-ci il 3-cü sayında Quba bölgəsində aparılmış kəşfiyyat işlərinin gedişində *"bu bölgədə həm keyfiyyət, həm də kəmiyyət göstəriciləri baxımından bütün Cənubi*

---

[71]Каталог музея Бакинского отделения Императорского Русского Технического Общества / - Баку: Тип. Трудь С.Г.Бернадира, - 1912, -с. 9,31,63,69.

[72]Дело о выдаче жителям гор. Елизаветполя Ады беку и Мешади беку Рафибековым, Молле Бабаеву и др. разрешениенп проведение разведки открытого ими месторождения железного руды и др. на казенной земле жителей сел. Кабатхана Елизаветпольского уезда // AzərbaycanRespublikası Dövlət TarixArxivi, Fond № 92, siyahı №1, 1-ci hissə, iş № 1211, vərəq - 1.; Заявление жителей сел. Юхары Айыплы Беюк Ага Карабекова и село Баданкенд Артема Шушанова, переписка с Елизаветпольском уездным начальником и о выдаче разрешения на разработку открытых залежей меди и серебра // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 92, siyahı №1, 1-ci hissə, iş № 251, vərəq - 1.; Заявление жителей сел. Юхары Айыплы Беюк Ага Карабекова и село Баданкенд Артема Шушанова, переписка с Елизаветпольском уездным начальником и о выдаче разрешения на разработку открытых залежей меди и серебра // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 92, siyahı №1, 1-ci hissə, iş № 251, vərəq - 1.

[73]Дело по разбору прошения Бакинских купцов Шамси Асадуллаева и Мусы Нагиева о разрешении им открытьнефтяные промыслина своих участках в местности Беюк - Пута Бакинского уезда // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 92, siyahı №1, 1-ci hissə, iş № 649, vərəq - 1.; Дело об отводе жителью сел. Нюгеди Кубинского уезда Тураба - Хальфа Али Мамед оглы двух участков землидля разработки в 10 верстах от сел. Перебедиль и Гюмтар Кубинского уезда // AzərbaycanRespublikası Dövlət TarixArxivi, Fond № 92, siyahı №1, 1-ci hissə, iş № 451, vərəq - 1.

*Qafqazın neft mədənlərində olduğundan fərqli olan yeni neft mənbələrinin tapılması haqqında məlumat verilmişdi”.*[74]

Bölmənin bu istiqamətdə gördüyü işlər içərisində *“neft sənayeçiləri qurultayında müzakirə edilmək üçün torpaq nümunələri və havanın analizinin nəticələri”,*[75] *“Abşeron yarımadasındakı bağların, mülklərin, xəzinə torpaqlarının sərhədlərini göstərməklə geoloji xəritəsi”*[76] və digərləri görülmüş işlərin kiçik bir hissəsi idi.

Dissertasiyanın son fəslinin **“Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin Bakı şəhərinin abadlaşdırılması işlərinə köməyi”** adlı ikinci yarımfəslində bildirilir ki, bölmənin fəaliyyət istiqamətlərindən biri də Bakı şəhər təsərrüfatının problemlərinin həlli ilə bağlı işlərin görülməsi olmuşdur.

Bölmənin bu sahədə fəaliyyət istiqamətlərinin çox olmasını nəzərə alaraq ilk olaraq şəhər təsərrüfatı üçün son dərəcə vacib olan üç məsələ - şəhər əhalisinin içməli su ilə təminatı, şəhər küçələrinin işıqlandırılması və nəqliyyat vasitələrinin rolu üzərində dayanmışıq.

Şəhər meriyasının müraciətləri əsasında bölmə əməkdaşları və komissiyalarının Bakıdakı içməli su quyularında su nümunələrinin sanitar normaların yoxlanması artıq tələbata və ənənəyə çevrilmişdi. Sonralar 1909-cu ildə Bakıya Şollar su kəmərinin çəkilişi işləri başladıqdan sonra Bakı Bölməsinin Kür su kəməri çəkilişi ilə əlaqədar gördüyü işlər və saxlanılan bütün materiallar *“1971-ci ildə Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi Bakıya Kür su kəmərinin çəkilməsi kimi çox nəhəng sosial problemin gerçəkləşdirməsi”*[77] zamanı aparılmış yeni müqayisələr və hesablamalar üçün faydalı oldu.

---

[74]Исследования нефти из местности около Кубы // - Баку: Труды БО ИРТО., 1897. № 3, - с.157.

[75]Пашковский, С. К анализам почвы и воздуха, произведенным по поручению А.М.Бенкендорфа для доклада XIII очередному сьезду нефтепромышленников в Баку // - Баку: Труды БО ИРТО, 1899. № 5, - с.273.

[76]Лебедев, Н. Геологическая карта Апшеронского полуострова с обозначением границ дач, владений, казенных групп и других сведений // - Баку: Труды БО ИРТО, 1898. № 5, - с.323.

[77]Мамедова, Лала. Интересные факты о бакинском водопроводе - как в столицу пришла вода: [Elekrtonresurs] / URL:https://news.day.az/society/1101235.html

Bakı Bölməsinin şəhər duması ilə əməkdaşlıq etdiyi və şəhərdəki abadlıq işlərinin genişləndirilməsinə kömək etdiyi digər bir mühüm sahə şəhər küçələrinin işıqlandırılması vəziyyətinin yaxşılaşdırılması idi. Bu məsələ, görülmüş işlərin nəticələri dəfələrlə bölmənin şöbələrində, xüsusi komissiyalarında müzakirə olunmuşdu.[78]

1888-ci ilin martın 19-da *"Bakı şəhərində küçələrin işıqlandırılmasının yaxşılaşdırılması haqqında bölmə komissiyasının materialları"*[79] müzakirə edilmişdi. Bu məlumatlar, bu sahədə vəziyyəti xeyli yaxşılaşdıracaq təkliflər şəhər dumasına göndərilmişdi.

XIX əsrin son illərində, xüsusi ilə də XX əsrin əvvəllərində şəhər nəqliyyatının işinin yaxşılaşdırılması Bakı Bölməsinin komissiyalarında tez-tez müzakirə edilmiş və səmərəli təkliflər verilmişdi. Bu baxımdan 1914-cü ilin fevralın 22-də bölmənin ümümi yığıncağında əvvəlki illərdə aparılmış hesablamalar əsasında mütəxəssislərin də iştirak etdiyi komissiyanın işinin nəticələri barədə mühəndis K.Nekrasovun məruzəsinin dinlənilərək bir sıra səmərəli praktik tövsiyələr irəli sürülməsini[80] qeyd etmək olar.

Bakı Bölməsinin Bakı şəhərinin abadlaşdırılması işinə köməyi haqqında fikirlərimizi ümumiləşdirərək deməliyik ki, bu işlər şəhər həyatı ilə bağlı müxtəlif vəzifələri həll etməyə çox kömək etmişdi.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas qənaətlər sistemləşdirilmiş, ümumiləşdirilmiş və təkliflər irəli sürülmüşdür.

Tədqiqatdan aydın oldu ki, RİTC-nin Bakı Bölməsinin yaranması ilk növbədə diyarın iqtisadi və müəyyən dərəcədə mədəni həyatında çox mühüm dəyişikliklərlə müşaiyət edilmişdi. Bakı

---

[78]Цимбади, О.П. О применение в Баку электрического освещения // - Баку: Труды БО ИРТО, - 1886. № 1, - с.13.;Способы уличного освещения городов и выбор рациональной системы освещения для города Баку // - Баку: Труды БО ИРТО, 1902. №8, - с.815.

[79]Об уличном освешении города Баку и мерах его улучшение // Баку: Труды БО ИРТО, 1888. № 1, -с.56.

[80]Отчет о деятельности Бакинского отделения Императорсого Русского Технического О-ва за 1914 год. Издание БО ИРТО / - Баку: Тип. Труд С.Г.Берладира, 1915, -с.7.

Bölməsi mövcud olduğu vaxtda öz dövrü üçün əhəmiyyətli və yeni olan kəşflər, yeniliklərin həyata vəsiqə alması məkanı olmaqla bərabər, eyni zamanda Şimalı Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində iqtisadi səmərəsi yüksək olan elmi-texniki kəşflərin tətbiqinə şərait yaratmışdır.

Bakı Bölməsinin cəmisi bir neçə on il ərzində imperiyanın müxtəlif regionlarında - Şimali Azərbaycanda, Şimali Qafqazda və digər ərazilərdə o yerlərin iqtisadi sərvətləri və təbii ehtiyatların öyrənilməsi və onlardan imperiya iqtisadiyyatının inkişafında səmərəli istifadə olunması üçün mühüm işlər görməyə nail olması da tədqiqatımızın əsas yekunlarından biri idi.

Bu da məlum olmuşdu ki, Bakı Bölməsinin fəaliyyəti təkcə neft sənayesi ilə bağlı olmamışdır. Bölmənin fəaliyyəti çox geniş olaraq, təkcə elmin müxtəlif sahələri ilə deyil, bölmə əməkdaşlarının kəşf və səmərəli təkliflərinin istehsalın ayrı-ayrı sahələrində yüksək mənfəət və səmərə əldə olunmasına gətirib çıxarılması ilə də yadda qalmışdır.

Bakı Bölməsinin fəaliyyətində tədqiqat işlərinə xüsusi diqqət göstərilməsi, laboratoriyalarda elmi-texniki xarakterli və əhəmiyyətli axtarışlar və sınaqların təşkil edilməsi görülmüş digər işlərdən heç də az əhəmiyyətli olmamışdır.

Bakı Bölməsinin neft işi ilə bağlı olan ən yaxşı mütəxəssisləri, bacarıqlı alimləri öz sıralarında birləşdirməsi, istehsalla elmin bu cür ahəngi o dövrkü həyat üçün yeni hadisə demək idi. Bakı Bölməsinin fəaliyyətinin nəticələrindən danışarkən bunların Bakının Rusiyada, sonralar isə dünyada neft emalının mərkəzinə çevrilməsində müəyyən müsbət rol oynadığını xüsusi olaraq vurğulamalıyıq.

Bakı Bölməsinin elmi - kütləvi kitabxanası haqqında bir də onu demək yerinə düşərdi ki, burada texnika və təbiətşünaslıq elmlərinə aid xaricdə nəşr edilmiş kitabların böyük toplusu saxlanılırdı. Bakı Bölməsinin açdığı pulsuz kitabxana və onun iş yerlərinə yaxınlıqda açdığı şöbələrdəki geniş fondlarındakı kitablardan istifadə etmək istəyənlərin kifayət qədər çox olması bölmənin səmərəli fəaliyyətinin mühüm nəticələrindən biri idi.

Neft mədənləri, fabrik-zavodlarda çalışan və işə qəbul olunmaq istəyən fəhlələrə müxtəlif peşələr üzrə bacarıq və qabiliyyətlə bağlı

işlərin öyrədilməsi üçün açılmış kurslar əhali arasında insanların savad dərəcələrinin artmasına kömək etmişdir.

Tədqiqatın əsas yekunlarını nəzərdən keçirdikdən sonra bəzi təklif və tövsiyələrimizi bildirmək istərdik:

- elm və istehsalın vəhdətinin gücləndirmək üçün AMEA və sahələr üzrə nazirliklərin tabeçiliyində olan elmi tədqiqat institutlarının fəaliyyətinin əlaqələndirilməsi üçün vahid koordinasiya şurası yaradılması yaxşı olardı;
- neft istehsalının bundan sonra da xeyli vaxt iqtisadiyyatımızın aparıcı bölməsini təşkil edəcəyini nəzərə alaraq neft kimyası elmlərinə aid tədqiqatların miqyası və maliyyələşməsini artırmaq faydalı olardı;
- neft kimyası və digər təbiət elmləri sahəsində səriştəli kadrların hazırlanması sahəsində işlərin səmərəsini artırmaq üçün tələbələr, hətta orta məktəb şagirdləri arasında sərgi müsabiqələrin keçirilməsinə üstünlük verilsin;
- Azərbaycan tarixinin XIX əsrin sonu – XX əsrin əvvəlləri dövrünü dərindən araşdıraraq, Azərbaycan elminin nailiyyətlərinin araşdırılmasında Bakı Bölməsinin fəaliyyətinə aid indiyədək elmi dövriyəyə cəlb olunmayan materiallardan hərtərəfli istifadə etmək;
- yeni binaların tikintisi zamanı Bakının arxitektura və tarixilik baxımından əvvəlki görkəminin saxlanması naminə bu işlərin şəhərin şimal-qərb və şimal istiqamətlərinə keçirilməsi, bununla da dünya təcrübəsində olduğu kimi, "Yeni Bakı" adlanacaq yaşayış massivinin tikilməsinə və yaşıllaşdırma məsələlərinə üstünlük vermək;
- Bakı şəhərinin tarixi ilə bağlı bölmənin materiallarında rast gəlinən işlərin ən azı bir hissəsi Azərbaycan tarixi və digər muzeylərin ekspozisiyalarında istifadə edilə bilər və bu iş həm də zəruridir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Hacıyeva M.C. Rusiya İmperiya Texniki Cəmiyyətin Bakı Bölməsinin fəaliyyəti haqqında // Doktorantların və gənc tədqiqatçıların XXII respublika konfransının materialları. II c., - Bakı: ADPU. –2018, 22 -23 noyabr, –s.37-39.

2. Hacıyeva M.C. Rusiya İmperiya Texniki Cəmiyyətin Bakı Bölməsinin Bakıda ilk kütləvi kitabxanaların təşkilində rolu //- Bakı: Tarix və onun problemləri, –2019. № 1, –s.34-38.

3. Hacıyeva M.C. Rusiya İmperator Texniki Cəmiyyətin Bakı Bölməsinin təbii sərvətlərimizin ehtiyatlarının öyrənilməsi sahəsində fəaliyyəti //Doktorantların və Gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının Materialları. –Bakı: –2019, –s.22-23.

4.Hacıyeva M.C. Создание Бакинского отделения Императорского Русского Технического Общества //- Одеса: Науковий вісник. Міжнародного гуманітарного університету. Випуск 18. Серія Істория. Філософия. Політология, 2019, с. 20-24.

5. Hacıyeva M.C. Rusiya İmperator Texniki Cəmiyyətin Bakı Bölməsinin məktəbləri // -Bakı: Geostrategiya, –2020, № 02 (56), –s.88-94.

6.Гаджиева М.Д.Участие Бакинского отделения Императорского русского общества в решении вопроса водоснабжения города Баку // Публичная дипломатия: формирование эффективных моделей системного сотрудничества в Кавказском регионе. Материалы международной научно-практической конференции. –Ставрополь: –2020, 30 ноября-1декабря, –с.108-114.

7. Hacıyeva M.C. Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin materialları Azərbaycanın XIX əsrin sonu XX əsrin əvvəlləri tarixinin öyrənilməsində mənbə kimi // –Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, –2020. C.16, № 1, –s.48-53.

8. Hacıyeva M.C. Azərbaycanlı sahibkarlar və alimlərin Rusiya İmperator Texniki Cəmiyyətinin fəaliyyətində iştirakı // - Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, –2020. C.16, №4, –s.55-63.

9. Hacıyeva M.C. Assistance to the Russian Imperial Baku branch of the technical society for the improvement of the city of Baku // - Одеса: Літопис Волині. Всеукраинсъкий науковий часопис, –2021. Число 24, –с.143-151.

10. Hacıyeva M.C. XX əsrin əvvəllərində Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin nəzdində yaradılmış texniki kursların

təşkili və fəaliyyəti // - Bakı: Pedaqoji Universitetin Xəbərləri, –2021. C.69, № 3, –s.51-60

11. Hacıyeva M.C. XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda yeni neft ehtiyatlarının müəyyən edilməsi sahəsində Rusiya İmperator Texniki Cəmiyyətin fəaliyyəti // Doktorantların və gənc tədqiqatçıların XXIV respublika konfransının materialları. - Bakı: –2021, –s.169-17.

12. Hacıyeva M.C. The foundation necessity of  Baku Branch of Imperial Russian Technical Society // – III International Siirt Conference on Scientific Researches, Siirt, Türkiye, –2022, 18-19 November, –p.1068-1074.

13. Hacıyeva M.C.  Dmitiy Ivanovich Mendelıyevs participation in Baku Branch of the schientıfic-research activity of Russian Emperior Technichal Society // - Taras Shevchenko IX-International Congress on Social Sciences. Lutsk, –Ukraine: –2023, 14-15 August, –p.213-217.

Dissertasiyanın müdafiəsi "29" may 2024-cü il tarixində saat 10[00] Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED. 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23

Dissertasiya ilə BDU-nun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.04.2024
Kağızın formatı:60*84/1/16
Həcm: 48683
Tiraj: 30